**T.A.NƏCƏFOVA**
*müəllim*
*e-mail: najafovatarana35@gmail.com*
**:https://orcid.org/0009-0006-7601-2421**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.373**

# ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNDƏ SƏRİŞTƏ ƏSASLI DİL TƏDRİSİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə.*** *Məqalədə səriştə əsaslı dil təliminin xarici dillərin tədrisində mühüm yanaşmalardan biri olduğu qeyd edilir. Sözügedən səriştə növü ikinci dildə qabiliyyətlərin və biliyin əldə olunmasına fokuslanır. Qısacası, bu yanaşma səriştə əsaslı təhsilin prinsiplərinin aplikasiyası hesab edilir. Bu zaman müəllimlər təhsilalanların bacarıqlarının, qabiliyyətlərinin inkişafı üçün fidbək həyata keçirir. Belə ki, bu zaman müəllim təhsilalanların ehtiyaclarından, maraqlarından xəbərdar olmalıdır. Bu yanaşma dillə bağlı müəyyən edilmiş bacarıq və qabiliyyətlərin inkişafını dəstəkləyir ki, bunlar da real həyatda vacib hesab edilirlər. Bu səriştə növünün ən böyük faydalarından biri aydınlıq, şəffaflıq meyarlarıdır.*
*Beləliklə, adını qeyd etdiyimiz bu təlim metodunda dilöyrənənlər real dünyaya dair tapşırıqların yerinə yetirilməsində, tamamlanmasında dildən istifadə bacarıqları nümayiş etdirməlidirlər.*

***Açar sözlər:*** *səriştə, ünsiyyət, dil, kontekst, bilik*

Səriştə əsaslı dil tədrisinə keçməzdən əvvəl səriştənin mahiyyətinə nəzər salmaq lazımdır. Bəzi tədqiqatçılar səriştəni real həyati situasiyalara dair tapşırıq və fəaliyyətlərin effektiv performansları üçün tələb olunan əsas bacarıq, bilik, münasibət və davranışların tədrisi, uyğunlaşdırılması olaraq qəbul edirlər. Baxmayaraq ki, adıgedən fəaliyyətlər tipik formada iş sahəsi və yeni mühitdə sosial məsələlərlə də bağlıdır, amma həyatın istənilən sahəsi ilə bağlı ola bilər.

Onu da qeyd edək ki, C.Riçardz və T.Rocers yazır ki, səriştə element olaraq, istənilən tapşırığın, işin, funksiya və ya fəaliyyətin akademik və ya iş mühitində uğurlu təminatıdır.

Buraya aşağıdakılar daxildir:

- spesifik bilik;
- düşüncə prosesi;
- münasibətlər;
- duyğu;
- hissi və fiziki bacarıqlar [ 5, s.145].

Məhz bu baxımdan səriştə tapşırıq, rol, funksiya olmaqla zaman içərisində dəyişir, kontekstdən kontekstə fərqlənir.

Bildiyimiz kimi, ali məktəblərdə kommunikativ səriştənin və onun komponentlərinin tədrisi, öyrənilməsi ən vacib məsələlərdən hesab edilməkdədir. C.Riçardz və T.Rocersə görə, səriştə əsaslı dil tədrisi öyrənmə nəticələrinə fokuslanır. Bu tədris yanaşması zamanı dilöyrənənlər öyrəndiklərindən daha çox, nəyə nail olduqlarını, nə etdiklərini hədəfləyir.

Səriştə əsaslı dil tədrisi bir çox faydalı tərəfləri ilə seçilir. Birinci bu yanaşma dilə dil biliyinin nəticəsi olmaqdan daha çox, ünsiyyət vasitəsi qismində fokuslanır. Burada daha çox məsuliyyətli, diqqətlə həyata keçirilən tədris əsas götürülür.

Bundan əlavə, sözügedən tədris növünün faydalı tərəflərindən biri də mühazirələrdən daha çox, təhsilalanlarla fərdi və ya qrup şəklində işləməyin hədəf nöqtəsi olmasıdır. Burada əsasən fasilitatorluq diqqət mərkəzində olur.

Metodoloji ədəbiyyatlarda səriştələrin faydalı tərəflərinin dörd xüsusiyyəti haqqında məlumat verilir ki, onlar aşağıdakılardır:

1. Səriştələrin spesifik və təcrübi olmaqla dilöyrənənlərin maraq və ehtiyaclarına yönəldildiyini görmək mümkündür.
2. Dilöyrənənlər səriştənin relevant və faydalı olduğu haqqında mühakimə yürüdə bilirlər.
3. Öyrədiləcək və yoxlanılacaq səriştələr spesifik və tam olur ki, bununla da təhsilalanlar öyrənmə üçün ehtiyaclarının nədən ibarət olduğunu bilirlər.
4. Səriştələr zamanla öyrədilir ki, bu zaman dilöyrənənlər nəyi öyrəndiklərini və gələcəkdə nə öyrənəcəkləri haqqında məlumatlı olurlar [4, s. 146-147].

Beləliklə, səriştə əsaslı dil təlimi təhsilə dair təlimatların məhsuldarlığını yüksəldir.

Dilöyrənmədə populyar və qəbul edilmiş yanaşmalardan biri də səriştə əsaslı dil tədrisinin olduğunu artıq qeyd etdik. Bu yanaşma dilöyrənənlərə öyrənmə və öyrətmədə uğurlu olmanın yollarını öyrədir. Bu yanaşmanın transformasiyasının aplikasiyasını səriştə əsaslı tədrisdə tapmaq mümkündür. A.Rylatt və K.Lohana görə, yeni milleniuma daxil olduqca, öyrənmə səriştəsi ilə bağlı iş və bacarıqlar dünyanın ən sürətlə inkişaf edən sənaye məsələsi və prioriteti olaraq qalacaqdır [3, s.18].

Qeyd edək ki, səriştəni əsasən iki növ üzrə təsnif edirlər:

1. Ümumi səriştə

– Burada təcrübədə (empirik bilik) və daha çox təcrübə ilə yanaşı formal öyrənmədən (akademik bilik) yaranan bilik başa düşülür (CEFR : 2001:11).

Bunlar fundamental olaraq, konseptlərə aid edilməkdədir.

– Bacarıqlar və onları necə reallaşdırmaq məsələləri

Buraya isə prosedurları necə həyata keçirmək məsələsi daxildir. Bunlar isə proses və strategiyalara aid edilməkdədir.

*Eksistensial səriştə*

Bu fərdi xarakterlərin şəxsiyyətin aid olduğu səciyyəvi xüsusiyyətləri və münasibətlər toplusudur. Məsələn, öz imici və digər insanlar haqqında fikirlər, sosial interaksiyaya könüllü qoşulmaq. Bu qeyd etdiklərimiz adını çəkdiyimiz münasibətlər fonunda qurulur.

– Öyrənmə qabiliyyəti

Burada digər xalqların dili, mədəniyyəti, əhalisi, biliyin digər sahələrinə öyrənilməsinə yönəldilir. Bu müstəqil və ömür boyu öyrənməni təşviq edir.

Onu da xüsusilə vurğulamalıyıq ki, hər nə olursa olsun, müasir ali təhsildə səriştələrdə ən təsiredici taksonomiya layihələri vardır ki, bunlar da silsilə şəklində nəzərdən keçirilir.

Burada onlar özləri də iki yerə ayrılır:

– Cross curricula generic

Burada bütün dərəcələr tanınır ki, onlar da hamısı üçün keçərli hesab edilir.

– Subject specific

Burada isə öyrənmənin hər bir aid olduğu sahəsi diqqət mərkəzində olur [2, s.7-12].

“Generic competence” adlanan növ özü-özlüyündə 3 yerə ayrılır ki, onlar aşağıdakı kimi təsnif edilməkdədir:

*İnstrumental*

Bu səriştə zamanı əsas akademik inkişafın təminatçısı olan koqnitiv, metodoloji, texnoloji, linqvistik qabiliyyətlər işə düşür.

Məsələn,

– təhlil və sintez bacarığı;
– ikinci dil biliyi;
– əsas kompüter qabiliyyətləri;
– tədqiqatçılıq qabiliyyətləri və s.

*Şəxsiyyətlərarası səriştə*

Burada isə əsas məsələ daha çox fərdi qabiliyyətlərə və sosial bacarıqlara yönəldilməkdədir. Məsələn,

- avtonom işləmə qabiliyyəti;
- rəhbərlik;
- komandada işləmək və s.

*Sistemli səriştə*

Burada daha çox sistemə aid olan bacarıq və qabiliyyətlər, anlama, həssaslıq, biliyin kombinasiyası nəzərdə tutulur.

Məsələn,

- öyrənmə bacarığı;
- problem həlli;
- qərar qəbul etmə.

*Spesifik səriştə*

Bu bilik və nəzəri məzmuna aid olub, spesifik tematik sahəyə tətbiq edilir. Məsələn,

- ingilis dilinin qrammatikasına dair bilik;
- ingilis dilindən ədəbiyyata dair bilik;
- dilçiliyə dair;
- nəzəri və metodoloji trendlərə aid və s.

*Akademik səriştə və qabiliyyətlər*

Burada öyrənmənin konkret sahəsi üzrə qabiliyyətin, biliyin yerləşdirilməsi nəzərdə tutulmaqdadır. Buraya qəbul etmə bacarığı, öyrənilən dildə elmi məhsulların emalı, onları anlamaq, ötürmək, nəzəri perspektivlər içərisində biblioqrafiyanı tənqidi cəhətdən qiymətləndirmə, kontekstuallaşdırmaq bacarığı, problemləri araşdıraraq, mətnləri axtarış etmək, relevantlığını dəyərləndirmək və s. kimi məsələlər daxildir.

*Profesional səriştə və ya spesifik profesional sahədə bilmə keyfiyyəti*

Burada isə ünsiyyətdə olmaq, mənimsənilən dili öyrətmək, müxtəlif janrda mətnləri tərcümə etmək, xülasə yazmaq bacarığı nəzərdə tutulur.

Əsasən səriştə dedikdə üç anlayış diqqət mərkəzində saxlanılır ki, onlar aşağıdakılardır:

1. Kreativlik;
2. Əməkdaşlıq;
3. Ünsiyyət.

Yaradıcılıq dedikdə, buraya əsasən yaradıcı (Creative Thinking) düşüncəni aid edirlər.

Yaradıcı düşüncə isə özü-özlüyündə aşağıdakıları özündə ehtiva etməkdədir:

- yaradıcılıq keyfiyyətləri;
- təsəvvür;
- problem həlli.

İkinci isə əməkdaşlıqdır (Collaboration). Bu silsiləyə isə aşağıda qeyd etdiklərimizi şamil edə bilərik:

- emosional zəka;
- komanda işi;
- adaptasiya.

Üçüncü isə ünsiyyətdir (Communication). Buraya isə aid olanları aşağıdakı kimi təqdim edirik:

- ifadə tərzi;
- dil;
- empatiya.

Müəllimlərin tədris prosesində yerinə yetirdikləri əhəmiyyətli rol hamıya məlumdur.

Bu baxımdan aşağıdakı tədris, təlim səriştələrini özündə ehtiva edən bacarıqları qeyd edirik:

- ünsiyyət və şəxsiyyətlərarası bacarıqlar;
- təşkil və planlaşdırma;
- auditoriyanın idarə olunması;
- fasilitasiya və dərsə sövqetmə;
- qiymətləndirmə və rəhbərlik;
- əməkdaşlıq və komanda işi;
- qayğı və inklüzivlik;
- çeviklik və adaptasiya.

Ümumiyyətlə, xarici dildə pedaqogikada profesional səviyyədə standartlar aşağıdakılara fokuslandırılır:

- ünsiyyət;
- mədəniyyət;
- əlaqə;
- müqayisə;
- cəmiyyət.

Bu, 5Cs freym olaraq istifadə edildikdə, müəlliflər təhsilalanların nailiyyətlərini bu standardları nəzərə almaqla “community service learning”(CSL) prizmasından nəzərdən keçirirlər.

Kompetensiya modelində 4 məsələyə fokuslanılır ki, onları təqdim edirik:

- münasibətlər;
- bilik;
- bacarıqlar;
- davranışlar.

Bunlar həm də kompetensiyanın elementləri hesab edilməkdədir.

Səriştə əsaslı dil tədrisində müəllimin rolu təhsilalanlarla pozitiv və səmərəli işlər aparmaqdır. Bu zaman məqsəd müvafiq bacarıqların əldə edilməsi ilə bağlı inkişafa nail olmaqdır. Belə olduqda təhsilverənlər tələbələrin ehtiyaclarından xəbərdar olmalıdırlar.

*Bu münasibətlə Y.Ş.Kərimov yazır: “Pedaqoji fəaliyyətin nailiyyətləri hər addımda məqsədin necə qoyulmasından asılıdır. Yalnız aydın məqsəd qoya bilən adam yaxşı işləyə bilər. Fəaliyyətin məqsədinin müəyyənləşdirilməsi heç də asan məsələ deyil. Məqsəd hər cür fəaliyyətin qaydasını, xarakterini müəyyən edir. Məqsəd insanın şüurlu fəaliyyətinin əvvəlcədən düşünülmüş nəticəsini ifadə edən kateqoriyadır”[1, s.26].*

Metodoloji ədəbiyyatlarda qeyd edilir ki, səriştə ən əsası 4 aspekti əhatə edir.

- icra (performance);
- mənalı kontekst (meaningful context);
- müstəqil öyrənmə (autonomous learning);
- problem həllinə yönəldilmiş bacarıqlar (problem-solving skills).

*İcra, yerinə yetirmə* tapşırığın tamamlanması ilə bağlı fəaliyyətdir. Bu zaman dilöyrənənlər bacarıq, fikir, düşüncə, biliklərini və s. məqsədyönlü şəkildə reallaşdırmalıdırlar. Burada əsas məsələ təhsilalanların geniş müstəvidə hər hansı bir mövzuda, eyni zamanda həmin mövzuya dair məzmunla bağlı geniş və əhatəli fikir irəli sürməsidir.

*Mənalı kontekst* barədə fikir yürüdərkən bu zaman təhsilverənlərin kontekst seçimləri burada əsas götürülməlidir. Belə ki, onlar zəngin lüğət ehtiyatı işlək olan fəaliyyətlər həyata keçirməlidirlər. Bu zaman dilöyrənənlər sözləri əzbər deyil, kommunikasiya prosesində öyrənməlidirlər.

*Müstəqil öyrənmə* zamanı isə dilöyrənənlər sərbəst şəkildə öz bilik və bacarıqlarını inkişaf etdirə bilirlər. Bu auditoriyada və auditoriyadan kənar fəaliyyətlərində onlara böyük dəstək olur.

*Problem həllinə yönəldilmiş bacarıqlar* isə daha geniş tənqidi təfəkkür, düşüncə, müqayisələr aparmaq qabiliyyətləri tələb edir. Bu zaman dilöyrənənlərdə ümumilikdə, situasiyanı dəyərləndirmək qabiliyyəti formalaşdırmaq lazımdır.

Məlumdur ki, sözügedən tədris metodu haqqında müxtəlif fikirlər vardır. Burada səriştə əsaslı dil təliminin öyrənmə modelləri də nəzərdən keçirilir.

Onlardan aşağıdakıları təqdim edirik:

- əməkdaşlıq əsaslı öyrənmə;
- layihə əsaslı öyrənmə;
- sorğu əsaslı öyrənmə.

Bunlar səriştənin inkişaf etdirilməsi strategiyaları olaraq təqdim edilir.

Bundan əlavə, diskursun təşkili bacarıqlarının mənimsənilməsi onlara uzun və genişləndirilmiş diskurs mətnləri hazırlamağa, emal etməyə yardım edir.

Diskursiv bacarıqların inkişaf etdirilməsində aşağıdakı fəaliyyətlər faydalı hesab edilir:

- təqdimatlar etmək;
- prosedurları izahlarla qeyd etmək;
- təsvirlər həyata keçirərək icra etmək;
- hekayə və ya hadisəni nəql etmək və s.

Bütün bunlar sözügedən səriştənin formalaşdırılmasında yardımçı olurlar.

Beləliklə, bu səriştə növü fəal öyrənmə və öyrətmə yanaşması olaraq, təhsilverənlərə dərslərin maraqlı keçirilməsi üçün çoxlu yol və üsullar təklif edir. Belə ki, müəllimlər tələbələrə ehtiyacları olan və öyrənəcəkləri məsələlər barədə fikirləşməyə vaxt verməlidirlər. Belə olduqda bütöv dərs yalnız danışmaqla deyil, müxtəlif müzakirələr, debatlar aparmaq, fikir mübadiləsi etmək, problem və anlaşılmazlıqları həll etməyə yönəldilməlidir. Bu zaman dərslərin planlaşdırılması və lazımi, tələb olunan qaydada təşkili vacib şərt olaraq qarşıya çıxır. Çünki dilöyrənənlərin həvəs, maraq və ehtiyacları nəzərə alınmaqla həyata keçirilən dərslər və bu fonda planlaşdırma uğurlu təlim nəticələrinin əldə edilməsinə bilavasitə yardımçı olmaqla yanaşı, həm də tədrisin keyfiyyət əmsalına əsaslı şəkildə təsirlə səciyyələnir.

Fikirlərimizi ümumiləşdirərək, qeyd edək ki, bu tədris növü aşağıdakı məsələləri hədəf olaraq müəyyənləşdirmişdir:

- ikinci dildə uğurlu ünsiyyətə nail olmaq;
- dörd bacarığın tətbiqini reallaşdıra bilmək;
- təhsilalanların dilöyrənmə bacarıqlarını genişləndirmək və təkmilləşdirmək;
- dilöyrənənlərin müstəqil öyrənmə bacarıqlarını formalaşdırmaq;
- İKT-nin nailiyyətlərindən auditoriyalarda effektiv şəkildə istifadəni gerçəkləşdirə bilmək bacarıqlarını nümayiş etdirmək;
- öyrənildən dildə vacib və lazımi mənbələrdən istifadəni bacarmaq;
- əldə edilən bilik və bacarıqların auditoriya mühitində, real həyati situasiyalarda tətbiqinə nail olmaq və s.

Onu da vurğulayaq ki, tapşırıqlar işin bir hissəsi hesab edilirlər ki, bu fonda dilöyrənənlər ikinci dildə düşünməyi, manipulyasiyanı, emal etməyi, interaksiyaya qoşulmağı öyrənirlər. Bu da onları növbəti mərhələlərdə səriştənin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atmağa sövq edir.

Ümumiyyətlə, səriştə əsaslı təlim metodunda öyrənmə və öyrətmə prosesi zamanı xeyli danışığa yönəldilmiş tapşırıqlar vardır ki, bunlar da öyrənilən dildə şifahi nitqin inkişafını dəstəkləməkdədir.

Nəticə etibarilə, kompetensiya xarici dillərin tədrisində aktuallıq kəsb edir.

Digər tədqiqatlarda yuxarıda da qeyd etdiyimiz kimi, kompetensiya modelində əsas dörd məsələyə diqqət edilir ki, buraya davranışı da əlavə edirlər.

Bunlar aşağıdakılardır:

- münasibətlər;

– bilik;
– bacarıqlar;
– davranışlar.

***İşin elmi nəticəsi.*** Beləliklə, səriştə əsaslı dil tədrisinin istifadəsi istiqamətində təhsilverənlər və onların seçdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən effektiv yollardan biri, hətta buna ən birincisi də demək olar ki, bu da dilöyrənənləri düzgün istiqamətləndirmək, ingilis dilində danışanları məqsədyönlü şəkildə dinləmək və mənalı söhbətlərə qoşulmaqdır. Əgər tələbələr nə qədər çox söz eşidər və başa düşərlərsə bir o qədər də səriştəlilik tez formalaşar.

Nəticə etibarilə, səriştənin tətbiq edilməsi diqqət mərkəzində saxlanılmalıdır.

***İşin elmi yeniliyi.*** Sözügedən məqalədə səriştə ilə bağlı indiyə qədər araşdırılan məsələlər təhlil edilir, elmi müddəalara nəzər salınır, əldə edilən nəticələr xülasələşdirilərək təqdim edilir.

***İşin tətbiqi əhəmiyyəti.*** Araşdırılan mövzu həm orta, həm də ali məktəblərdə ingilis dilinin tədrisində səriştə əsaslı təlim metodunun istifadəsi və şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi baxımından faydalı ola bilər.

## Ədəbiyyat

*Azərbaycan dilində*

5. Kərimov, Y.Ş. Təlim metodları / Y.Ş.Kərimov, – Bakı: RS Poliqraf MMC, –2009, – 279 s.

*İngilis dilində*

6. Maria Luiza Perez Canado. Competency- Based Language Teaching in Higher Education. Springer Science + Business Media Dordrecht, – 2013, – p.7-12.
7. Rylat, A. Creating training miracles / A.Rylat, K.Lohan. –Sidney: Prentice Hall. – 1997, – p.18.
8. Richards, J. Approaches and methods in Language Teaching / J.Richards, T.Rodgers, – Cambridge University Press, – 2001, – p. 146-147.
9. Richards, J. Approaches and methods in Language Teaching. 3rd edition / J.Richards, Theodore S. Rodgers. – Cambridge University Press, – 2014, – 409 p.

**T.A.Najafova**

**The advantage of using Competency Based Language Teaching in English at high schools**

***Summary***

This article deals with Competency Based Language Teaching that is one of the most important approach in Foreign Language Teaching. The named competency types focus on achievement of knowledge, skills and abilities. Shortly, this approach is considered to be an application of principles of Competency Based Education. At that time teachers provide positive feedback for improving learners language skills and knowledge.This approach is based upon the learners needs and interests. It is considered that the teachers should be aware of their interests and needs. This approach claims development of the defined skills and abilities. They are considered important points in real life.

So, the great advantage of this approach is the clarity. In Competency Based Language Teaching students should perform and demonstrate the language use for completing real world tasks.

***Key words:*** *competence, communication, language, context, knowledge*

**Т.А.Наджафова**

**Важность использования метода обучения, основанного на компетентности при преподавании английского языка в высших вузах**

***Резюме***

В статье отмечается, что языковое обучение навыкам считается одним из важных подходов в обучении иностранным языкам. Этот тип навыков ориентирован на приобретение умений и знаний на втором языке.

Одним словом, этот подход считается применением принципов компетентностного образования. В это время преподаватели дают оптимистичную обратную связь для развития навыков и способностей учащихся.

Итак, учитель должен знать потребности и интересы учащихся. Этот подход способствует развитию конкретных языковых навыков и способностей, которые считаются важными в реальной жизни. Одним из самых больших преимуществ этого типа компетентности является ясность. Таким образом, в этом методе обучения, о котором мы упомянули, учащиеся должны продемонстрировать свои языковые навыки при выполнении реальных задач.

***Ключевые слова:*** *компетенция, коммуникация, язык, контекст, знание*

*Rəyçi: filol.f.d. N.Əliyeva*

*Redaksiyaya daxil olub: 11.03.2025*